# Qarabağ Azərbaycandır!

Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 17-18 (7685-7686) ✲ 1933-cü ildən nəşr olunur ✲ Cümə, 29 sentyabr 2023-cü il. ✲ qebele-ih.gov.az gabalanews@mail.ru





## *Qondarma separatçı rejim özünü buraxdı, cinayətkar rəhbərləri isə Bakıda həbsxanadadır*

İlham Əliyev İkinci Qarabağ savaşındakı möhtəşəm zəfərlə həm 200 illik münaqişəyə, həm də xalqımızın 30 illik yurd həsrətinə son qoyan Müzəffər Ali Baş Komandan, qüdrətli Sərkərdə kimi tariximizə adını qızıl hərflərlə yazdırdı.

Vətən müharibəsinin üçüncü ildönümündə Qarabağdakı separatçı, qondarma "Dağlıq Qarabağ Respublikası"nın özünü buraxması ilə bağlı verdiyi "qərar" isə onu deməyə əsas yaratdı ki, İlham Əliyev 200 illik erməni layihəsinə son qoydu. Ötən iki əsr ərzində ermənilər və havadarları "böyük Ermənistan" planlarını reallaşdırmaq üçün hər cür çirkinliklərə əl atdılar. Amma sonunda həqiqət, ədalət qalib gəldi. Bu çirkin layihənin reallaşmaması və məhv edilməsi istiqamətində ulu öndər Heydər Əliyevin illər öncə başladığı diplomatiyanı İlham Əliyev qətiyyətlə davam etdirdi və möhtəşəm sonluqla yekunlaşdırdı.

İlham Əliyev tam müstəqil siyasəti və əsl Sərkərdə məharəti ilə hayların "böyük Ermənistan" xülyasını məhv etməklə həm də dünyada separatizmə necə son qoyulmasının nümunəsini göstərdi. Azərbaycan yalnız öz gücünə, öz qüdrəti hesabına separatizmə qalib gəldi.

İkinci Qarabağ savaşında Azərbaycan "smart müharibə", yəni XXI əsrin yeni müharibəsini apararaq bir ilkə imza atdı. Bu gün də davam edən Rusiya-Ukrayna müharibəsində hər iki tərəf Azərbaycan təcrübəsindən, nümunəsindən yararlanır. İndi dünya ölkələri arasında separatizmlə qarşılaşanlar da Azərbaycan təcrübəsindən istifadə edə bilərlər.

2023-cü ildə isə Azərbaycan Qarabağda keçirdiyi antiterror tədbirləri ilə cəmi 23 saata qanunsuz silahlı dəstələri, separatçıları zərərsizləşdirdi. Azərbaycan Ordusu qarşısında 1 gün belə tab gətirə bilməyən separatçılar ağ bayraq qaldıraraq təslim oldular və İlham Əliyevin bütün şərtlərini qəbul etdiklərini bildirdilər.

Sentyabrın 28-də isə Qarabağ bölgəsindəki separatçı rejim özünü buraxdığını elan etdi. Bu barədə qondarma qurumun "rəhbəri" Samvel Şahramanyan "qərar" imzalayaraq bildirdi ki, 2024-cü il yanvarın 1-dək bütün qondarma "təşkilatlar" və "qurumlar" ləğv edilir və qondarma "Dağlıq Qarabağ Respublikası" öz fəaliyyətini dayandırır. Qarabağın erməni əhalisi, o cümlədən kənarda yaşayanlar gələcəkdə bölgəyə qayıtmağın mümkünlüyü ilə bağlı müstəqil və fərdi qərar qəbul etmək məqsədilə Azərbaycanın təqdim etdiyi reinteqrasiya şərtləri ilə tanış ola bilərlər.

İndi növbə qondarma rejimin cinayətkar rəhbərlərinin, əli Xocalıda günahsız insanların qanına batan, azərbaycanlılara qarşı həyata keçirilən cinayət əməllərində, qətliamlarda iştirak edən canilərindir. Artıq onların bir neçəsi həbs edilib. Sentyabrın 27-də onlardan biri - Ruben Vardanyanın saxlanılması və Bakıya gətirilməsi göstərdi ki, İlham Əliyev deyir və onun icrasını da reallaşdırır. Uğurlu antiterror əməliyyatlarından sonra sentyabrın 20-də xalqa müraciətində Prezident bir daha bəyan etdi ki, Azərbaycan Xocalıda və digər ərazilərimizdə törədilən qətliamlara, cinayət əməllərinə görə erməni xalqını deyil, kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham edib və bu gün həmin şəxslər məsuliyyətə cəlb olunur, bundan sonra da həbs ediləcəklər. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar.

Bu fikirlərdən cəmi 7 gün sonra qanunsuz yollarla Azərbaycan ərazisinə gələrək, qondarma "Dağlıq Qarabağ Respublikasının dövlət naziri" vəzifəsində çalışmış Ruben Vardanyan Laçın sərhəd-buraxılış məntəqəsində saxlanıldı və Bakı şəhərinə gətirildi. Bu şəxs 2022-ci ilin sentyabrında Rusiya vətəndaşlığından imtina edərək Qarabağa köçüb, Xankəndidə ara qarışdırmaqla məşğul idi.

Vardanyanın həbs edilməsi, əlbəttə ki, digər separatçılara mühüm mesajdır. Onlar - Koçaryan, Sarkisyan, Arutyunyan, Balasanyan və digərləri tezliklə Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən həbs edilərək Bakıya gətiriləcək.

Artıq Qarabağdakı separatçıların keçmiş "xarici işlər naziri" olmuş, son olaraq qondarma "prezident müşaviri" kimi özünü təqdim edən Davit Babayan da Azərbaycana təslim olacağını açıqlayıb. Babayan bu barədə sosial şəbəkə hesabında paylaşım edərək deyib ki, adı Azərbaycanın qara siyahısına düşüb. İndi isə qaçmağa yolu yoxdur və buna görə də Şuşaya gedib təslim olmaq qərarına gəlib. Yəni daha bir cinayətkar könüllü təslim olmaq qərarını belə əsaslandırıb.

Proseslər göstərir ki, tezliklə həbs edilənlərin sırası genişlənəcək və cinayətkarlar cəzalarını alacaqlar. Budur İlham Əliyev qətiyyətinin, əsl sərkərdə məharətinin təntənəsi. Prezident kimi dünyanın istənilən məkanında keçirdiyi görüşlərdə, iştirak etdiyi beynəlxalq toplantılarda, ən ali kürsülərdə erməni yalanlarını ifşa edib, Müzəffər Ali Baş Komandan kimi müfəssəl döyüş planları hazırlayıb, cəmi 44 günə və 23 saata düşmənin dizini yerə gətirən İlham Əliyev müasir Azərbaycan tarixinin ən qüdrətli lideri kimi insanların qəlbində əbədi heykəlini ucaldıb

**"Azərbaycan"**